Ədəbiyyat qəzeti





# Barat VÜSAL-70

Hörmətli Barat müəllim!

Sizi - tanınmış şair və publisisti 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1951-ci il martın 18-də Qazax rayonunun Kosalar kəndində anadan olmuş, orta təhsilinizi doğma kənd məktəbində almış, 1973-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix fakültəsini bitirmisiniz. Təyinatla Sabirabadda və Qazaxda müəllim işləmisiniz, bu dövrdəki fəaliyyətiniz "Baş Müəllim" adıyla qiymətləndirilmişdir.

Siz ədəbiyyata keçən əsrin 70-ci illərində gəlmisiniz. İmzanız Qazaxda çıxan rayon qəzetində 60-cı illərin sonlarından, respublika mətbuatında isə 70-ci illərdən görünməyə başlamışdır.

1982-ci ildən Gənc Yazıçıların Respublika Ədəbi Birliyinin üzvü olmusunuz. 1983-cü ildə gənc yazıçıların Şüvəlanda keçirilən VIII respublika müşavirəsində iştirak etmisiniz.

İlk şeirlər kitabınız "Göz aydınlığı" adlanır və 1986-cı ildə "Yazıçı" nəşriyyatında çapdan çıxmışdır.

Daha sonra bir-birindən maraqlı kitablarınız işıq üzü görmüşdür: "Ürəyimdən bir çay axır" (1991), "Yolumuz eşqə bağlıdır" (1997), "Ömür bitər, yol bitməz" (2004), "Qazaxda yaşadım mən öz ömrümü" (2007), "Ruh gəmisi" (2013), "Kufə əhli" (2014), "Piyada atlı" və s. şeirlər kitablarınız sizi oxucuların sevimlisi etmişdir.

1988-ci ildən AYB-nin üzvülüyünə qəbul olunmusunuz.

1993-cü ildən AYB Qazax Zona Bölməsinin sədrisiniz. Bu bölmə Qazax, Ağstafa, Tovuz, Gədəbəy rayonlarında yaşayıb-yaradan ədəbi qüvvələrini, qismən də Borçalı ədəbi mühitini özündə birləşdirir. İşlədiyiniz 28 il ərzində bölmə sədri kimi respublikamızın Qərb qapısında çox diqqətə layiq yaradıcılıq işləri ilə məşğul olmusunuz. Dövrü mətbuatda yazıçı və şairlərimizlə bağlı, tariximizlə, ədəbiyyatımızla, mədəniyyətimizlə, gənc ədəbi qüvvələrlə bağlı məqalələrlə, publisist yazılarla çıxışlar etmisiniz.

Yüzlərlə yaradıcılıq hesabatları, yaradıcılıq gecələri, yubileylər, kitab təqdimatları, anım mərasimləri məhz sizin rəhbərliyinizlə, aparıcılıq məharətinizlə baş tutmuşdur.

Bölgədə yeni gənc ədəbi qüvvələrin üzə çıxarılmasında, onların kitablarının çap olunmasında, bölmə yazarlarının əsərlərinin öz əksini geniş tapdığı almanaxların, antologiyaların, xüsusi buraxılışların tərtib edilib işıq üzü görməsində çox gərgin əmək sərf etmisiniz, səmərəli fəaliyyət göstərmisiniz.

Siz Azərbaycanın dövlətə və dövlətçiliyə bağlı sayılıb seçilən tanınmış, dəyərli, vətənpərvər şairlərindən birisiniz. Vətənpərvərlik ruhunda yazdığınız şeirlərə görə 1998-ci ildə AYB-nin və Respublika Həmkarlar İttifaqının keçirdiyi poeziya müsaqibəsində "Xəlil Rza Ulutürk mükafatı" və 2008-ci ildə klassik ədəbi irsimizin təbliğindəki fəaliyyətiniz üçün "Səməd Vurğun ədəbi mükafatı" almısınız.

Şair və Bölmə rəhbəri kimi 2000-2001-ci illərdə Dünya Gənc Türk Yazarlar Birliyinin 2 ödülünə layiq görülmüsünüz.

Sizə 2009-cu ildə müddətli Prezident təqaüdü verilmişdir.

Ordumuzla, əsgərlərimizlə qurduğunuz sıx əlaqələrə görə sizə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin xüsusi ödülü verilmiş, Respublika Veteranlar Şurası sizi "Əlağa Şıxlinski" medalı ilə təltif edilmisiniz.

Siz oxucular arasında və ictimaiyyət içərisində böyük nüfuz sahibisiniz. Bunun nəticəsidir ki, 2013-cü ildə bir ziyalı və şair kimi verdiyiniz təklif əsasında Azərbaycan Prezidenti Cənab İlham Əliyevin verdiyi sərəncamla Qazaxda bölgələr üzrə ilk "Ədəbiyyat Müzeyi" inşa olunmuşdur.

Bakıda keçirilmiş Avropa oyunları zamanı ölkə Prezidentinə həsr etdiyiniz poema əsasında Kontata yazılmış, Ü.Hacıbəyov adına Dövlət Filarmoniyasını simfonik orkestirinin ifasında Az.TV-də səsləndirilmişdir.

Şeirlərinizə mahnılar bəstələnmişdir.

Siz təkcə sözə deyil, həm də saza bağlı şairsiniz.

2007-2008-ci illərdə İTV-də "Ozan məclisi"ni yaradanlardan və onun ilk aparıcılarından biri olmusunuz. 2017-ci ildən Azərbaycan Aşıqlar Birliyi İdarə Heyətinin üzvüsünüz.

İTV-də uzun müddət yayımlanmış "Ovqat"və "Səhər sovqatı" televerilişlərində çıxışlarınız sizə böyük nüfuz və şöhrət qazandırmışdır.

Sizin haqqınızda İTV kanalında "Bir kəndin nağılı", "Bir sözün sehri" və ATV-də "Bir sevgi tarixçəsi" televerilişləri də nümayiş etdirilmişdir.

"Mədəniyyət" kanalında sizin haqqınızda çəkilmiş "Sənətkar ömrü" telefilmi tamaşaçılara təqdim edilmişdir.

Siz həm radio, həm də televiziyalardakı çıxışlarınızla, dövri mətbuatda çap etdirdiyiniz 200-ə yaxın ədəbi, elmi, tarixi, fəlsəfi və publisistik yazılarınızla, məqalələrinizlə, esselərinizlə, araşdırmalarınızla da oxucuların, tamaşaçıların, dinləyicilərin rəğbətini və hörmətini qazanmısınız.

Ədəbi yaradıcılığınıza dair Salatın Əhmədlinin "Ömrünü Qazaxda yaşayan şair" və Firuzə Abdullayevanın "Barat Vüsalın poeziyası" adlı monoqrafiyaları çap olunmuşdur.

İki cildlik "Seçilmiş əsərləri"niz oxucuların ixtiyarına verilmişdir.

Şeirləriniz Türkiyədə və İranda çap olunur. Tehranda "Söz yaşıllığı" adlı şeir kitabınız 2018-ci ildə nəşr edilmişdir.

Siz gözəl ssenarist kimi də, aparıcı kimi də rayonda, bölgədə, respublikada keçirilən müxtəlif yubileylərdə, xatirə gecələrində, digər ədəbi-mədəni tədbirlərdə öz əməyinizi əsirgəməmisiniz.

50 və 60 illik yubileyləriniz Qazaxda və Bakıda təntənəli şəkildə keçirilmişdir.

Prezident Cənab İlham Əliyevin verdiyi Sərəncamla sizə 60 illik yubileyinizdə Azərbaycan Mədəniyyətinin inkişafındakı xidmətlərinizə görə "Azərbaycan Respublikasının Əməkdar İncəsənət Xadimi" fəxri adı verilmişdir.

Sizin yaradıcılığınızı Azərbaycanın bir çox görkəmli ədəbiyyat və mədəniyyət xadimləri - Anar, İ.Muğanna, N.Həsənzadə, H.Arif, X.R.Ulutürk, V.Səmədoğlu, M.Dilbazi, S.Tahir kimi Xalq şairləri, N.Cəfərov, N.Şəmsizadə, V.Yusifli, R.Kamal kimi alim və tənqidçi-ədəbiyyatşünasları yüksək qiymətləndirmişlər.

Hörmətli Barat müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**